Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Şeirimizin xan çınarı-Məmməd Araz

(metodik vəsait)

**Xalq şairi Məmməd Araz 90 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2023**

**Tərtibçilər:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Şeirimizin xan çınarı -** Xalq şairi Məmməd Araz 90 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2023. – 23 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

# Giriş

***Vətən mənə oğul desə nə dərdim,***
***Mamır olub qayasında bitərdim...***

Bu il Azərbaycan ədəbiyyatının qüdrətli söz sahiblərindən olan Məmməd Arazın anadan olmasından 90 il ötür. Məmməd İnfil oğlu İbrahimov 1933-cü ilin payız günündə, oktyabr ayının 14-də Şahbuz rayonunun Nurs kəndində anadan olmuşdur.

Məmməd Araz aləmi sirli-sehirli, gəlimli-gedimli dünyada əbədiyyət qazanan bir aləmdir. Sağlığında ikən canlı klassikə çevrilən, hamının qəlbində özünə heykəl qoyan və həyatda Daşlaşan, Qayalaşan, Heykəlləşən bir sənətkar olmuşdur.

Məmməd Araz yaradıcılığı rəngarəng, qol-budaqlıdır. Onun yaradıcılığında gənclərin əxlaqi tərbiyəsi, torpağa qayğı və ehtiram, Azərbaycan təbiətinin qorunması kimi bir sıra problemlər daha geniş əks olunmuşdur.

Şairin düşünən və düşündürən yaradıcılığını qidalandıran ən ali mənbə Vətənə, xalqa, doğma torpağa məhəbbət hissidir. Onun hər şeirində, hər sətrində, hər sözündə belə, Vətənə məhəbbət tərənnüm olunur. "Bu torpağın daşı olub qalaydım, yoxdu özgə umacağım..."

"Vətən" sözü şair üçün mücərrəd bir məfhum deyil. Məmməd Araz "Vətən" dedikdə gözlərimiz önündə yurdumuzun gözəl düzləri, bol sulu çayları, məğrur dağları, yalçın qayaları canlanır. Məmməd Araz yalnız Vətənin gözəlliyini təsvir etməklə kifayətlənmir. Şairin Vətənə məhəbbəti dərin duyğularla ifadə olunur, o, Vətənin yovşanını

yad elin gül-çiçəyindən daha əziz bilir və Vətənin “sağ ol”undan başqa özgə mükafat istəmir.

Heç bir mükafatın yetmədi mənə,
Bircə “sağ ol”un da bəsimdi, Vətən
Bəsimdi hər səhər təltif yerinə
Qapımda küləyin əsibdi, Vətən.

## Bölmə I
## Həyat və yaradıcılığı

Ömür də bir borcdur, əlli il, yüz il,
Bədbəxtdir az yazıb çox yaşayanlar.
Şair dost, ömrünü yaşında deyil,
Yazdığın nəğmənin ömründə axtar.

Məmməd Araz (İbrahimov Məmməd İnfil oğlu) Naxçıvanın Şahbuz rayonunun Nurs kəndində anadan olmuşdur. İnfil kişinin ailəsində dünyaya gələn və hər kəsin sevincinə səbəb olan, qarabuğdayı, qaragöz bu uşağın, gələcəkdə böyüyüb şair olacağı heç kəsin ağlına gəlməzdi. Onun atası və anası belə bunu xəyallarına gətirməzdilər. Amma sən demə bu uşaq Allah sevgisi ilə doğulubmuş. İllər keçdi, ata da, ana da hər şeyi öyrənmək, bilmək istəyən, xalq deyimlərinə heyran-heyran qulaq asan balaca Məmmədin qarşısında sinə dəftərlərini səxavətlə açdılar. Özləri də bilmədən onun məhz bir şair kimi yetişməsinə zəmin yaratdılar. Məmmədin anasının yazı savadı yox idi. Ancaq cəhrə üstə bayatı, ağı qoşardı. Ana, folklordan qidalanan şeiri çox gözəl duyurdu və təbii ki, oğlunun şeir yazmasına sevinirdi. Bəli, Məmmədin şeirə həvəsinin ilk müəllimi evdə anası və onun cəhrəsi olmuş, beləcə onun qəlbində yavaş-yavaş söz həvəsi göyərmişdir. Onun uşaqlıq illəri müharibə dövrünə təsadüf edibdir. O, özünün uşaqlıq

illərini, ədəbiyyata maraq oyanmasını belə xatırlayır. "Aşağı siniflərdən ədəbiyyata, şeir oxuyub əzbərləməyə xüsusi həvəsim vardı. Yaxşı şeiri bircə dəfə oxuyardım, yaddaşıma həkk olunardı. Evimizin taxta-boğçasında hara əl atsan-bir dastan, bir nağıl, "Aşıq şeirləri" kitabı çıxardı. "Aşıq Ələsgər" elə həmişə kürsünün üstündə idi. Anam bu kitabları bizə oxudardı.

Belə-belə qəlbimdə söz göyərdi. Özlüyümdə gah deyilmişlərə "sahib çıxmaq" istəyirdim, gah da onlara oxşar quramalar düzəltməyə çalışardım. 9-cu sinifdə sanki qəfil bir təkan məni ayrı bir məkana apardı. Sinif yoldaşlarımdan kiminsə qoltuğunda iri bir kitab gördüm. Maraqlandım-Səməd Vurğunun "İstiqbal təranəsi" idi. Alıb baxdım. Ortadan açdım gözümə ilk dəyən "Dilcan dərəsi" şeiri oldu. Bu misra məni elə tutdu, elə tutdu ki,: "Yenə səni gördüm Dilcan dərəsi... Elə bil bundan sonra milyon illərlə beləcə lal-dinməz dağları, dərələri gözüm gördü...Ancaq təsir məni ayrı mövzulara yönəltdi. İlk dəfə ədəbiyyat müəlliminin rəhbərliyi ilə çıxan məktəb divar qəzetində baharı vəsf eləyən şeirim çap olundu".

Məmməd Araz deyirdi ki, əsil tərcümeyi-hal şairin şeirləridir. Şairin əsərləri onun ömür dastanıdır, qələm onun qardaşıdır. Sənətkar çox halda öz yazılarının baş qəhrəmanı ola bilir- "Qəlbində nə varsa, ona deyir".

Məni şeirimdə gəz bir insan kimi,
Qəlbimdə nə varsa ona demişəm.
Anadan, bacıdan gizlətdiyimi
Kağızdan, qələmdən gizlətməmişəm.

Məmməd Araz poeziyanın dumduru, şəffaf bulağı başına, Arazın bulanıq sularının poeziya ağrısını da gətirdi. Özü də tarixdən və təbiətdən, ana dilindən, bayatıdan, folklordan axan bir Araza döndü- Məmməd Araz! Lap uşaqlıqdan meylini

nəbatat elminə saldı. Qələmi isə bir pöhrə kimi çəməndən, çöldən, meşədən göyərdi.

İstedad şair üçün bir meyardır-deyirlər. Lakin bu yetərli deyil. Həqiqi istedad hələ əl dəyməmiş qızıl külçədir.

Məmməd Araz yaradıcılığını dörd şaxəyə bölmək olar. Bunlar Vətən, Dünya, Təbiət, Araz mövzularıdır. Məmməd Araz öz qələmi ilə bu mövzuların hər birinin canlı heykəlini yaratmışdır. Poeziya heyrətdir deyirlər. Məmməd Araz heyrətləndirən şairdir. Poeziya sirlə-kəşf arasında bir addımdır. Hər addımında kəşfləriylə heyrətləndirən, bizim hər dəqiqə, hər an görüb duyduğumuz, ancaq fərqinə varmadığımız incə mətləblərə toxunan şairdir. Nəhayət, Məmməd Araz poeziyamızın geniş planetidir. Bu planetin ulduzları sönməzdir. O elə bir yüksək zirvədir ki, bu zirvədən Azərbaycan poeziyasının bütün əzəməti görünür. Onun bu yüksəkliyə çatdıran misilsiz fitri istedadı, dəryaca ağlı, təbiətinin büllurluğu, sadəliyi, səmimiliyi olmuşdur. Vətən mövzusu onun yaradıcılığının əsas qayəsidir. "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı"-deyən sənətkar milli poeziyamızın "daş əsgəri" tək yaşayıb-yaratmağı özünün vətəndaşlıq borcu bilib. Qayaların keçmişini qayalara yazdığı üçün vətən onu bir balaca vətən daşı sanarsa, şair özünü xoşbəxtlərin xoşbəxti hesab edərdi. Yaxud "Vətən mənə oğul desə nə dərdim, mamır olub qayasında bitərdim"-deyən şair hətta vətənin adi bir qayasında kiçicik bir mamır olmasına belə razı idi.

Məmməd Arazın vətən haqqında onlarla şeiri var. Onların əvvəli də axırı da vətəndir.

Azərbaycan-mayası nur, qayəsi nur ki...
Hər daşından alov dilli ox ola bilər.
"Azərbaycan" deyiləndə ayağa dur ki,

Füzulinin ürəyinə toxuna bilər.

Məmməd Arazın müasir ədəbiyyatımızı zənginləşdirən lirik-psixoloji üslubda yazılmış poemaları da çoxdur. Onun vətəndaşlıq mövqeyini, mənəvi dəyərlərini, müasir insanın arzu və düşüncələrini yüksək poetik sənətkarlıqla əks etdirən "Üç oğul anası", "Araz axır", "Paslı qılınc", "Əsgər qəbri haqqında ballada", "Mən insan oldum", "Qayalara yazılan səs", "Atamın kitabı" poemaları müasir poeziyamızın dəyərli nümunələrindəndir.

## Bölmə II
## Yubiley tədbirlərinin keçirilməsi

Hələ sağlığında ziyalı insan, böyük şair, əsil vətəndaş kimi oxucular tərəfindən dərin məhəbbətlə sevilən, əzizlənən Məmməd Arazın yoxluğu ürəklərdə kövrək duyğular oyatsa da, şeirləri əbədiyaşardır. Poeziyamızın xan çınarı sayılan Məmməd Arazın şeirləri torpağa, Vətənə sevgi ilə doludur. Müasir Azərbaycan ədəbiyyatının inkişafında Məmməd Arazın özünəməxsus yeri və rolu vardır. Onun dərin fəlsəfi məzmunlu lirikası zəngin ənənələrə malik milli poeziyamızı keyfiyyətcə yeni mərhələyə qaldıraraq daha da zənginləşdirmişdir. Sevimli şairimiz Məmməd Arazın 90 illik yubileyi münasibətilə respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, lisey və gimnaziyalarda, kitabxanalarda və s. yerlərdə tədbirlər planı hazırlanmışdır. F. Köçərli adına Respublika Uşaq Kitabxanasında tədbirlər planına əsasən sərgi hazırlanmışdır. Kitabxanada bir çox oxucu kütləsinin sorğularını ödəmək məqsədilə M.Arazın əsərlərindən, onun həyat və yaradıcılığına dair ədəbiyyatlardan, dövrü mətbuatda nəşr olunan materialların

kartotekasından və bir də şairin həyat albomundan hazırlanmış fotolardan ibarət sərgi təşkil olunur. Təşkil olunan sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn, "Söz ustadı", "İşıqlı poeziya", "Bir şair vardı...", "Heyrətləndirən şair", "Məmməd Araz poeziyasında", "Dünya sənin, dünya mənim, dünya heç kimin", Gözəlliyi, kamilliyə səsləyən poeziya", " Məmməd Araz - 90" və s.

Kitabxanamızda təşkil olunan sərginin nümunəsini sizlər üçün təqdim edirik.

1. Başlıq. "Məmməd Araz-90".
2. Məmməd Arazın portreti
3. Görkəmli şəxsiyyətlərin Məmməd Araz haqqında söylədikləri
4. Kitablarının nümayişi.
5. Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.
6. Ailə albomundan şəkillərin nümayişi.
7. Şeir parçası

***Mən Arazam, səsim tutqun Arazdı,***
***Ha çağırdım, ha yüyürdüm, ha yazdım.***
***İndi daha qaynar təbim ayazdı.***
***İsidərmi bir od-ocaq, nə bilim..***

# GÖRKƏMLİ ŞƏXSLƏR MƏMMƏD ARAZ HAQQINDA

Bu gün biz bir daha Məmməd Arazın Azərbaycan xalqının mədəniyyətinə verdiyi töhfələri gördük, eşitdik və bunların xalqımız üçün nə qədər faydalı, gərəkli olduğunu bir daha bildik, bir daha dərk etdik ki, Azərbaycan xalqının həyatında Məmməd Arazın yardıcılığının nə qədər böyük əhəmiyyəti var. Xalq şairi Məmməd Araz dövrümüzün sənət zirvəsində durur.

Heydər Əliyev,
Ümummilli lider

Öz əsərləri ilə yüksək bədii sənətkarlıq və əsl vətəndaşlıq qeyrəti aşılayan, doğma Vətəni sonsuz məhəbbətlə sevən, qüdrətli qələmi ilə xalqımıza sədaqətlə xidmət edən Məmməd Arazın poeziyasını Azərbaycan torpağından, tariximizdən, el-obadan ayrı təsəvvür etmək çətindir.

Heydər Əliyev,
Ümummilli lider

Xalq şairi Məmməd Araz millətimizin mənəvi təkamülündə, gənclərimizin estetik tərbiyəsi yolunda yorulmadan çalışaraq qədim və zəngin ənənələrə malik milli poeziyamıza gözəl töhfələr vermişdir. Şairin dərin fəlsəfi məzmunlu lirikası çağdaş Azərbaycan poeziyasını daha da zənginləşdirmiş, Məmməd Araz istedadının, təfəkkürünün bəhrələri olan yüzlərlə şer milyonların qəlbinə yol taparaq əbədi məskən salmışdır. Təkcə rəsmi təltifləri – xalq şairi, əməkdar incəsənət xadimi fəxri adları, Dövlət mükafatı deyil, bənzərsiz sənətindəki millilik, xəlqilik, ənənəyə sədaqət və novatorluq ona xalq məhəbbəti qazandırmışdır.

Heydər Əliyev,
Ümummilli lider

Vətənpərvərlik duyğuları ilə zəngin Məmməd Araz yaradıcılığı Azərbaycan poeziyasının parlaq səhifələrindən birini təşkil edir. Şairin yüksək bədii-fəlsəfi ümumiləşdirmələrlə səciyyələnən, lakonik deyim tərzinə malik dərin ictimai məzmunlu lirikası gücünü vətən təbiətinin gözəlliklərindən, böyük tarixi keçmişimizdən və milli ədəbi fikrin tükənməz xəzinəsindən almışdır. Ana dilinin bütün incəliklərini özündə toplamış bu poetik irs gəncliyin mədəni-mənəvi dəyərlərə ehtiram ruhunda formalaşdırılması baxımından müstəsna əhəmiyyətə malikdir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

Məmməd Arazın mövzuları bir çərçivəyə məhdudlaşıb qalmayıb... Onun bir sıra lirik parçaları-təbiət gözəlliklərinə könüldən vurğun bir rəssam kimi çəkdiyi mənzərələr, lövhələr yadda qalır, oxucunu düşündürür, dəfələrlə görmüş olduğu dağları, dərələri, çəmənləri, bulaqları, könül oxşayan mənzərələri yeni “gözlə” görməyə, yeni çalarla duymağa yön verir, dönə-dönə baxdığımız, lakin görmədiyimiz rəngləri, biçimləri qarşımızda canlandırır.

Rəsul Rza,
*Xalq şairi*

Məmməd Araz bütün varlığı ilə ana dilinin təbii axarına, folklora, ata- baba müdrikliyinin qaynaqlarına bağlı olan bir sənətkardır. Onun şeir bulağı ictimai yığıncaqların , müxtəlif miqyaslı ədəbi məclislərin xitabət kürsülərində, kitabların səhifələrində,sevgililərin məhəbbət məktublarında, məktəb uşaqlarının şirin dillərində çağlayacaqdır.

Bəkir Nəbiyev,
ədəbiyyatşünas,tənqidçi

Məmməd Arazın şeirlərində dərin bir xəlqilik var. O, həyatı çox gözəl müşahidə edirdi. Dərk elədiklərini poemalarında yaxşı qələmə ala bilib, yeni bir pafosla yeni bir üslubla millətə, xalqa çatdırıb. Məmməd Araz coğrafiyanı yaxşı bildiyindən ancaq sərvdən, çinardan, palıddan, aslandan, pələngdən və s. deyil, həm də geomorfoloji proseslərdən söhbət açır və oxucuya o prosesin əmələ gəlməsini, inkişafını çox düzgün şərh edir və həm də şerlə çatdırır.

Budaq Budaqov,
Akademik

Məmməd fikir adamıdır. Bu, adi səyyari fikir deyil, canlı, yaradıcı, fəal fikirdir. Məmməd Arazın şeirlərinin əsasında hər cür abstraktlıqdan uzaq olan konkret fikir, hiss dayanır.

Famil Mehdi,
Şair

Məmməd Araz poeziyasını, onun fəlsəfəsini, hər sətrində hikmət gizlənən sözləri duymaq, onu açmaq şairin aurasına daxil olmaq deməkdir.

Kirman Abdin,
rəssam

Poeziyada yeni təbii iqlimin – çağdaş ekoloji təfəkkürün ilk təməl daşlarını qoyanlardan biri Məmməd Araz oldu.

Yaşar Qarayev,
ədəbiyyatşünas,tənqidçi

Məmməd Arazın bədii dili bütün əzələləri ilə müasirdir. Onun dili ənənə ilə novatorluğun, bədiiliklə əbədiliyin, əbədiliklə dialektçiliyin və xəlqiliklə qrammatikliyin harmonik rabitəsinə ən parlaq nümunələrdən biridir.

Tofiq Hacıyev,
Türkoloq,alim

Dilin əlvanlığı, şirinliyi,oynaqlığından, poetik müşahidələrin dərinliyindən və itiliyindən, bəzən gümrah, bəzən ağrılı- acılı düşüncələrin, bəzən fərəhli, bəzən küskün hisslərin vəhdətindən yaranmış Məmməd Araz poeziyasının məhvəri vətən eşqi, vətəndaşlıq amalı, dünya haqqında ərzimiz haqqında həm nikbin, həm də nigaran qənaətlərdir.

Anar,
Xalq yazıçısı

Məmməd Arazın sevgisi qədər nifrəti də dərin və barışmazdır. O, nifrət obyektinə çox qəzəblidir. Ona görə də şair bu hədəfi ən kədərli və ən tutarlı obrazlarla döyməyi, lənətləməyi bacarır. Bu cəhətdən “ Məndən ötdü qardaşıma dəydi” şeiri vahid Azərbaycanı xanlıqlara bölən, bizi parçalayan xanlara nifrət və qəzəb nəğməsidir.

Bəxtiyar Vahabzadə,
Xalq şairi

Memmed Araz - Esger_andi.pdf - Google Drive
https://drive.google.com/file/d/1n3hsmuzue_xi9Ch4Yb9TURDxTt0XKq4N/view
https://drive.google.com/file/d/1nQkfptmwD8PjoB8_c9lZWOogvkidUxfh/view
https://drive.google.com/file/d/1gT7zJBwKQke49wfqGvdTbPj-o3vNnGW4/view












**Ürəyimsiz kəlmə kəsən deyiləm,**
**Nə qədər ki, öz əlimdi yazanım**.

Xalq şairi Məmməd Araz

Cağdaş Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən olan xalq şairi Məmməd Arazın keşməkeşli və şərəfli ömür yoluna bir daha nəzər salmaq üçün kitabxanada bir sıra təbdirlərin keçirilməsi məqsədəuyğundur. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Məmməd Araz yubileyi ilə bağlı kitab müzakirəsinin, oxucu konfransının, şeir müsabiqəsinin, sual-cavab gecəsinin, ədəbi-bədii gecənin keçirilməsi vacibdir. İndi isə yuxarı və orta yaş qrup oxucular arasında keçirilən “Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı!” adlı sual cavab gecəsinin nümunəsini veririk. Ən əvvəl kitabxanaçı Məmməd Araz yaradıcılığından oxuculara bir

qədər məlumat verir. Əziz oxucular! Doxsan il bundan əvvəl Şahbuzun Nurs kəndində, el-obada xüsusi hörmət və ehtiram sahibi olan İnfil kişinin ailəsində Məmməd adlı qarabuğdayı, qaragözlü, çəlimsiz bir uşaq dünyaya göz açanda atası və anası bəlkə də heç xəyallarına belə gətirmədilər ki, o, böyüyüb şair olacaq. Amma, sən demə, həmin bu uşaq Azərbaycanın ən görkəmli şairlərindən biri Məmməd Araz olmaq üçün Allah vergisiylə doğulubmuş. İllər keçdi, atası da, anası da indi çox dəbdə olan heç bir plan, yaxud proqram tərtib etmədən, sadəcə valideynlik vəzifələrini yerinə yetirərək, hərşeyi öyrənmək, bilmək istəyən, xalq deyimlərinə heyran-heyran qulaq asan, eşitdiklərini beynində, ürəyində hifz edən balaca Məmmədin qarşısında sinə dəftərini səxavətlə açdılar, özləri də bilmədən onun məhz bir şair kimi yetişməsinə zəmin yaratdılar. Gəlin sizinlə birlikdə istedadlı şair, Vətən şairi Məmməd Araz haqqında hazırladığımız suallarla tanış olaq.

1. Məmməd Araz nə vaxt və harada anadan olmuşdur?
2. Araz şairi deyəndə nə başa düşürsünüz?
3. Məmməd Araz yaradıcılığının özünəməxsusluğu nədən ibarətdir?
4. Vətən mənə oğul desə, nə dərdim, Mamır olub qayasında bitərdim deyəndə nə başa düşürsüz?
5. M.Arazın Vətən, ana haqqında hansı şeirlərini misal göstərə bilərsiniz?

Sonda öz fəallığına görə fərqlənən oxucular kitabxana tərəfindən kiçik hədiyyələrlə təltif olunurlar.

Görkəmli xalq şairi Məmməd Arazın 90 illik yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də oxucularla söhbətdir. Kitabxanaçı şairin həyat və yaradıcılığı haqqında oxuculara geniş məlumat verəndən sonra şairin "Bir axşamın balladası" adlı şeirini oxuyur.

Ey ilham pərisi, varsansa əgər,
Bu axşam üstümə qanadını gər,
Qanım bir hərarət alsın qanından,
Çıxım bu fikirlər burulğanından.
İsinsin azacıq bu daş duyğular,
Olmayım bir evdə beşinci divar...
Bu axşam o qədər tənhayam, təkəm,
Bu axşam elə bil yarılıb sinəm,
Çapılıb talanıb məhəbbət orda,
Qalmayıb bir tikə mərhəmət orda.
Bu axşam sahibi ölən bir tacam,
Kimsə istəməyən bir ehtiyacam.
Bu axşam fikrimlə o qədər acam,
Lap bütün gecəni yesəm-doymaram.
Bu axşam qəlbimdən gəlib keçəni
Bütün ulduzlara desəm-doymaram.
Bu axşam... özümdə yoxam bu axşam,
Bu axşam özümdə dəfn olunmuşam.
Bu axşam od yoxdür məhəbbətimdə,
Bir ünvan, ad yoxdur məhəbbətimdə.
Bir dəniz, bir sahil təmasını mən
Bu axşam qəlbimdə görmürəm nədən?..
İlahi, dünyaya niyə gəlmişəm?
Hisslərim qəlbimdə əzilmiş şüşə,

Eşqim didiklənən bir parça kağız...
Küləklər, haraya aparırsınız?
Aparın, aparın, aparın,
Amma
Onu tuş etməyin hissiz adama,
Onu qoşa duran,
Onu illər boyu baş-başa duran
Daşlara verin.
Birgə çöp daşıyan,
Birgə yuva quran quşlara verin.
Qoy suya, torpağa hopulsun bu qəm;
Mən necə sevmişdim, necə sevirəm...
Sevib yaşadığım anlar var idi,
Fikrimdə "o" vardı, "onlar" var idi.
Bir dağdım, sinəmdə ad idi "onlar",
Adicə səyyahdı, yad idi "onlar",
Qəlbimi görməyi bacarmazdılar,
Sinəmə girməyi bacarmazdılar,
Sinəmdə "o" adlı vulkanım vardı,
Bilməzdik hansımız hansı olardı,
Kim kimin gözündən qapardı dərdi,
Kim kimin qəlbində buz əridərdi.
Sevirdim - dağ idim, sevirdi - vulkan...
Qaldı bir ovuc kül, bir daş o dağdan.

Eh ilham pərisi, varsansa əgər,
Bu axşam üstümə qanadını gər,
Mənə bir sevimlik məhəbbət gətir,
Mənə bir güzəştlik mərhəmət gətir!
Niyə mən özümdə yoxam bu axşam,

Bu axşam özümdə dəfn olunmuşam.
Sanıram min ildir dünyada varam.
Sonuncu nəğməsi çalınmış taram.

Heç nə gözə dəymir, gözə görünmür,
Gözə görünən də təzə görünmür.
Göylər dənizlərdir, dənizlər göylər,
Təpələr dağlardan uca görünür.
Lap dünən doğulan körpələr belə
Gözümdə yüz yaşlı qocaya dönür.
Bu axşam özümdən uzaqlaşmışam,
Uşaq olmamışam, uşaqlaşmışam.
Ötən məhəbbətim yadıma düşüb,
İtən məhəbbətim yadıma düşüb...
İlahi, qəlbimə bir duyğu göndər.
Yazıqdır, yazıqdır məni sevənlər.
Bəlkə bir quyuya atılan daşam,
Ağlı kəsilməmiş kəsilmiş başam...
Kürrədən indicə suya salınmış,
Odu söndürülmüş, köpü alınmış
Bir parça poladam, bir parça dəmi
Filizlər mənimlə dostluq eləmir.
Dağlardan izimi söküb-tökürlər,
Külçələr dalımca qəh-qəh çəkirlər...

Eh ilham pərisi, varsansa əgər,
Bu axşam üstümə qanadını gər,
Qoyma bir anlıq da küsüm dünyadan,
Sevgi ümidimi üzüm dünyadan,
Mənə məhəbbət ver sevim bir kəsi,

Sevim, elə sevim özü bilməsin.
Bir anlıq dünyada yox olsa bəşər,
Məni meymunların yanına göndr:
Ünsiyyət istəyim məhəbbət üçün,
Məhəbbət istəyim ünsiyyət üçün.
Bir anlıq dünyada yox olsa bəşər,
Məni delfinlərin yanına göndər.
Dənizə məhəbbət səpmək öyrənim,
Sahilə məhəbbət çəkmək öyrənim.
Onu meşələrə səpim-göyərsin.
Onunla qumları öpüm-göyərsin.
Məhəbbət adlanan dil yaradım mən,
Məhəbbət adlanan din yaradım mən...

Ey ilham pərisi, varsansa əgər,
Bu axşam üstümə qanadını gər,
Mənə məhəbbətli bir nəğmə gətir,
Məhəbbət imzalı bir namə gətir,
Oxuyum, oxuyum o yarım üçün,
Onu cehiz verim qızlarım üçün.
İlahi, qəlbimə bir sevgi göndər.
İlahi, yazıqdır məni sevənlər...

Kitabxanaçı söhbətə belə başlayır:

Məmməd Araz böyük poetik ilhama malik olan sənətkarlardan idi. Sözün və sənətin Məmməd Araz zirvəsinə gedən yolu heç də həmişə hamar olmayıb. Onun həyatı da sənəti kimi daşlı-qayalı yollardan keçib.

1933-cü il oktyabrın 14-də Şahbuz rayonunun Nurs kəndində dünyaya göz açan Məmməd Araz ilk təhsilini həmin

kənddə alıb. 1954-cü ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirən böyük sənətkar 1961-ci ildə Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunda oxuyub. Azərbaycan Dövlət Nəşriyyatında bədii ədəbiyyat redaksiyasının müdiri, sonra isə baş redaktorun müavini, "Ulduz" jurnalında məsul katib, "Ədəbiyyat və İncəsənət" qəzetində baş redaktorun müavini işləyib. 1971-1981-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının poeziya bölməsinə rəhbərlik edən Məmməd Araz 1974-cü ildən ömrünün sonunadək "Azərbaycan təbiəti" jurnalının baş redaktoru olub.

Əziz oxucular, Ümummilli lider Heydər Əliyev Xalq şairi, poeziyamızın istedadlı nümayəndəsi Məmməd Araz yaradıcılığına və şəxsiyyətinə daim yüksək qiymət vermişdir. Təsadüfi deyil ki, Məmməd Araz ilk yaradıcılığa ötən əsrin 50-ci illərindən başlasa da, onun təkrarsız istedadı 1970-ci illərdə, Ulu Öndərin Azərbaycana rəhbərliyinin birinci dövründə parlamışdır. Məmməd Araza böyük şöhrət gətirən "Atamın kitabı", "Həyatın və sözün rəngləri", "Oxucuya məktub", "Qanadlı qayalar", "Aylarım, illərim" kitabları məhz bu illərdə çap olunub, əsərləri xarici dillərə tərcümə edilərək geniş oxucu kütləsinin məhsuluna çevrilib. 1975-ci ildə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunan böyük şairə 1978-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilib, 1995-ci ildə isə ümummilli lider Heydər Əliyev Xalq şairi Məmməd Arazı "İstiqlal" ordeni ilə təltif edib. Ulu Öndər Məmməd Araz sənətini yüksək dəyərləndirərək deyib: "Bu gün bir daha Məmməd Arazın Azərbaycan xalqının mədəniyyətinə, ədəbiyyatına verdiyi töhfələri gördük, eşitdik və bunların xalqımız üçün nə qədər faydalı olduğunu bir daha bildik, bir daha dərk etdik ki, Azərbaycan xalqının həyatında Məmməd

Arazın yaradıcılığının nə qədər böyük əhəmiyyəti var”. Ümidvaram ki, Azərbaycan xalqı daim müstəqilliyini qoruyub saxlayacaq və müstəqil Azərbaycanın ilk “İstiqlal” ordeninə layiq görülmüş şəxsiyyətlərdən biri kimi Məmməd Araz, Azərbaycan xalqının tarixində indi olduğu kimi, gələcəkdə də öz yerini tutacaqdır”.

Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərini nəzərə alan Prezident İlham Əliyev görkəmli sənətkarın xatirəsinin əbədiləşdirilməsi, yubileylərinin keçirilməsi haqqında sərəncamlar imzalayıb. Bu sərəncamlar Azərbaycan ədəbiyyatının, bütövlükdə yaradıcı ziyalıların, o cümlədən Məmməd Araz sənətinin və şəxsiyyətinin böyük himayədarı, ulu öndər Heydər Əliyev ənənələrinin müasir şəraitdə uğurlu davamı kimi yüksək dəyərə malikdir. Böyük sənətkar 2004-cü ilin dekabrın 1-də Bakıda vəfat edib və Fəxri xiyabanda dəfn olunub.

Təbiət şairi Məmməd Araz yaradıcılığını uşaqlara sevdirmək, aşılamaq məqsədilə kitabxanaçı bir zamanlar “Azərbaycan təbiəti” jurnalının baş redaktoru işləmiş şairin uşaqlar üçün qələmə aldığı “Baxın, görün, uşaqlar…” adlı hekayəsini oxuyur.

Göy guruldayır, şimşək çaxır, yağış yağır. Çay axır, quş uçur…Bunlar hamısı təbiət hadisələridir. Hamısı bizdən asılı olmadan baş verir.  Başqa cür ola bilərdimi? əlbətdə yox! Başqa cür olsaydı gördüyümüz, üstündə yaşadığımız dünya tamam başqa cür olardı.

Siz necə, uşaqlar, heç ətrafınıza baxıb, görməlini görə bilirsinizmi? Sadəcə baxmaqla, seyrçi nəzərlə bu kiçik proseslərin fəqrinə varmadan nəticə çıxarmaq mümkündürmü? Yox, mümkün deyil. Bunun üçün həmişə”niyə” sualı verməklə,

“ona görə ki…” cavabını özünüzdən alın. Qulaq verin təbiətə, oxuyun təbiəti.

O zaman ki, yaz olur
Gecə-gündüz taraz olur.

Baxın, görün uşaqlar! Görün hansı şair bunu deyib. Novruz bayramının gəlişini necə ustalıqla ifadə edir. Sonra başqa şeirində fikrini daha təzə-tər, daha obrazlı, daha ahəngdar, daha oynaq və bədii şəkildə sanki gözlərimiz qarşısından açır. Mən görürəm o lövhəni, o mənzərəni yazın o gəlişini:

Gəl-gəl, a yaz günləri,
İlin əziz günləri…

O əziz gün hamımızındır. Təbiət üçün, bəlkədə, o günün o qədər də fərqi yoxdur. Bizə isə ulu babaların yadigarıdır. O ənənəni yaşadanlara, nəsildən-nəsilə ötürənlərə eşq olsun! Bu adətlər, ənənələr, qaydalar, qəribə oyunlar-tamaşalar Vətənin adını, qürurunu, mənəvi-əxlaqi keyfiyyətini müəyyən edir, onu torpaq üstündə daha möhkəm və möhtəşəm olmağa səsləyir.

Baxın, görün, duyun bunları!

Bu qədər torpaq deyirik. Bəlkə, torpaq özü də Vətəndir. Vətən təkcə torpaq deyil, torpaq isə hardasa Vətənin bir hissəsidir, Vətənə möhkəm-əbədi bağlı hissəsidir. Torpaq bünövrədir, özüldür, Vətənin dayaq nöqtəsidir. O dayaq nöqtəsi də insandır. Sizsiniz, bizik, onlardır. “Mənlərdir”, “Sənlərdir”.

Torpağa, Vətənə yurd da deyirlər. Yurd-yuva xalqın ocağının odu, tüstüsüdür.

Baxın, görün uşaqlar…Baxın-görün həyət-bacada, yol kənarında, bağçada-parkda ağaz əkən kimdir? Ən çətin ayaqda bir ağac belə əkən adam sabah meşələrimizin, bağlarımızın, ümumiyyətlə, böyük yaşıl dünyamızın keşiyində duracaq…

O, eyvandan həyatə zibil tullayan, papiros kötüyü atan, ağaca çıxan, quşları daşlayan, iti-pişiyi didərgin salan dəcəl çox güman ki, sabahın əli baltalısı olacaq. Belələrini hamı tanımalı, bir-birinə nişan verməlidir.

Kəndimizə-şəhərimizə, yurdumuza, elə nəfəsimizə bu tüstü-duman hardan gəlir? Hansı zavoddan, hansı binadan, hansı ocaqdan, hansı qərardan gəlir? Belələrinə qətiyyən güzəştə getmək olmaz.

Sevin sənətimizi, sevin şeirimizi, öyrənin tariximizi!
Bir görün Nəsimi nə deyib, necə deyib:

Şərhi-bəyana sığmazam.

Böyük Sabir necə uca səslə oxuyub:

Bənzərəm bir qocaman dağa ki, dəryada durar!

Səməd Vurğun :

“Məni yelkən kimi qərq etsə dəryada zaman,

Vurğun öldü deməyin, bir əbədi sənəti var” məramını yazıb.

Bu qürura, bu ucalığa baş əyin, onunla fəxr eləyin. Baxın, görün, öyrənin, sevin uşaqlar…

Bəli, əziz uşaqlar bu gün sizə sevimli şairimiz Məmməd Arazın “Baxın, görün, uşaqlar” adlı hekayəsini oxuduq. Ümid edirik ki, bu söhbət sizin çox xoşunuza gəldi, burada səslənən fikirlər sizin həyata, təbiətə baxışınızı dəyişəcək, Vətənə, torpağa olan sevginizi daha da artıracaqdır. Tədbir Məmməd Arazın “Qaranquş” şeiri ilə başa çatır.

Əsdi vədə yeli...yaz müjdəsilə
Qondun eyvanıma yenə qranquş!

Mən sənin eşqinlə gəlirkən dilə,
Uçmağın dərd oldu mənə qaranquş!

Bir zaman yuvanı uşurmuşam mən,
Bəlkə də, bəlkə də o yadındadır.
Dilin yox, dərd açıb söz söyləyəsən,
Dilin də, sözün də qanadındadır.

Bəzən əlində şiş, çiynində yaba
Uşaqlar yanıma yığıldı, ay quş!
On günə, bir aya tikdiyin yuva
Bircə an içində dağıldı, ay quş!

Yelləmi, selləmi keçdi ötən gün?
O, bəlkə ötəri şimşək səsiydi.
Sənin öz yuvandan ayrı düşməyin
Mənimçün bir uşaq əyləncəsiydi.

Bəlkə bu halımdan incidi dağ-daş
Bunu öz vaxtında duya biləydim.
Birgünlük uşaqlıq günahımı kaş
Bütün ömrüm boyu yuya biləydim.

Bilmədim o günün ani nəşəsi
Mənə dərd olacaq ömrüm uzunu.
Bəlkə ev qayğısı, övlad nəfəsi
Olmasa indi də duymazdım bunu.

Eh, xəyal nələri gətirir yada...
Yeni müjdən ola mənə, qaranquş!

Körpəlik gülüşüm qanadlarında
Bircə gün geriyə dönə, qaranquş!

Vaxt olur cansızdan can umur insan
Adi təsəllidir, bunlar da ancaq.
Uçan körpəliyim, uçulan yuvan
Onsuz da geriyə qayıtmayacaq.

Gəl yenə yuva qur doğma yerində,
Könlüm həsrətinlə dindi, qaranquş!
Ta uçma, çəkinmə məni görəndə,
Mən uşaq deyiləm indi, qaranquş.!

Xalq şairi Məmməd Arazın yubileyi ilə bağlı kitabxanamızda keçirilən tədbirlərdən biri də ucadan oxudur. Ucadan oxu uşaqların ən çox sevdiyi tədbirlərdən biridir. Belə tədbirlərin keçirilməsi uşaqlarda şeir demək bacarığını daha da artırır. Gəlin birlikdə Məmməd Arazın uşaqlar üçün "Göydən üç alma düşdü", "Günəşlə oynayan uşaq" şeirlərinə qulaq asaq.

## Göydən üç alma düşdü

Nağıl istəyirəm, şirin bir nağıl,
Nağıl istəyirəm, təzə bir nağıl.
Köhnə nağılları yeyib qurtardıq
Köhnə nağılları içib qurtardıq:
Bir az duzlu idi, bir az da şirin.
Üç alma düşmədi nağıldan sonra,
Heç alma düşmədi nağıldan sonra.
Xəlbirlə su dartan divlər — görmədik;
Fillər məğlub oldu qarışqalara,

Şirlər təslim oldu qarışqalara,
Dovşan tələsinə canavar düşdü!
İnsan cələsinə sərçə — görmədik;
Üç alma düşmədi göydən — görmədik;
Heç alma düşmədi göydən — görmədik.
Bu il nağılçılar göylə danışıb:
Dörd alma düşəcək nağıldan sonra.
Tələsin, tələsin nağılçı dostlar;
Nağıl dinləyənlər siz də tələsin,
Göyün də vədinə inanmaq olmaz:
Nağıl qurtarmamış düşsə almalar...
Onda nağılçıya kim inanacaq!
Heç alma düşmədi göydən bəlkə də...
Bir şirin nağıl da bitəcək belə.
Üç alma düşəcək, üç alma göydən;
Dörd alma düşərsə, biri bizimdi...

**Günəşlə oynayan uşaq**
Dəniz qırağında oynayır uşaq,
Sahil də onundur, dəniz də onun.
Hərdən çəmənləşən, hərdən dağlaşan
Dalğalar gözündə uşaq oyunu...

Üfüqdə qırmızı günəş gərnəşir,
Dəniz alovlanır, dəniz odlanır.
Uşaq yüyürür ki, tuta günəşi,
Uşaq günəşi də oyuncaq sanır.

Anası deyir ki, "batarsan, bala,
Günəş çox uzaqdı, dəniz çox dərin".
Uşaq da duruxur, çəkilir dala,
"Olmazı olmaya bu böyüklərin..."

Qayıdıb həvəslə sovurur qumu,
Günəşin üstünə qum atır hərdən;
Sonra da yüyürür: "qoy qaçım yuyum..."
Anası qışqırır: - Demədimmi mən...

"Günəşin gözünə qum doldu axı,
Qoy qaçım üzündən öpüm, barışaq..."
Anası ovudur: "Yemək vaxtıdır,
Bir az da dayansaq gün yandıracaq..."

Bir də qulağımda səsləndi bu səs:
"Günəş çox uzaqdı, dəniz çox dərin",
Minib söz atını, dinməz-söyləməz
Çapdım sonunacan bu fikirlərin:

"Olmaz"dan "olar"a - bir ömür yolu,
Yenə çox arzumuz qalır yarıda.
Qoy uşaq yüyürsün günəşə doğru,
Yığsın ciblərinə ulduzları da.

Büdrəyər büdrəsin, nə vaxtsa, neynək;
Dalğanı keçilməz bir dağ bilməsin.
İndidən dənizə dərin deməyək,
İndidən günəşi uzaq bilməsin...

Görkəmli söz ustası Məmməd Arazın yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də şeir müsabiqəsidir. “Qüdrətli söz sənətkarı” adlı şeir müsabiqəsi əsasən yuxarı sinif şagirdləri arasında keçirilir. Tədbirdə şairin bir çox gözəl şeirlərindən istifadə oluna bilər. Müsabiqənin şərtlərinə görə yaxşı intonasiya ilə şeir demək bacarığı olan şagirdlər münsiflər tərəfindən seçilir və mükafatlandırılır. Kitabxanaçı bir qədər oxuculara şairin həyat yolu və yaradıcılığı haqqında məlumat verir:

Haradan başlanır Azərbaycan - hər birimizin içindən. Bu hiss bizimlə birgə doğularaq böyüyür, bizimlə birgə bu məmləkətdən başqasına daşınır. Bu hiss hər birimizin varlığına elə hopub ki, onu dərk etməmək mümkünsüzdür. Bəlkə də bu qeyri-adi hissin gücüdür ki, yaşadığımız yerdən asılı olmayaraq bu torpaq, bu Vətən naminə hər an ölməyə hazırıq.

Dərin məzmunlu, oxunaqlı və milli mündəricəli şeirlərilə Məmməd Araz vətəndaş qeyrətli ədəbiyyat nəhəngidir. Bu görkəmli şair həm də milli azadlıq ideyalı əsərlərilə istiqlal şairi olaraq əbədi şöhrət qazanıb.

Harada işləməsindən, hansı vəzifəni tutmasından asılı olmayaraq, Məmməd Araz əslində bütün ömrü boyu bir vəzifəni icra edib. O da poetik Azərbaycan dünyasına xidmət, Vətən qarşısında vətəndaşlıq borcunu yerinə yetirməkdir. Böyük istedadı və poetik bacarığı sayəsində Məmməd Araz Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Ələkbər Sabir və Səməd Vurğun poeziyası ilə ona qədər gəlib çatan klassik şeir ənənəsini və üslubunu təkmilləşdirərək hamının gördüyü və bildiyi, lakin dilə gətirməyi bacarmadığı məsələləri ictimai düşüncənin məhsulu edib, Azərbaycanda vətəndaşlıq poeziyasının əsasını qoyub. Gənc yaşlarından başlayaraq yarım əsrdən artıq davam edən Məmməd Araz yaradıcılığı mənsub olduğu xalqa layiqli

şair – vətəndaş xidməti nümunəsidir. Onun şeirinin əvvəli də, axırı da Vətəndir. Məmməd Araza məxsus "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı” məşhur misraları müasir dövrdə poeziyada və ictimai mühitdə vətəndaşlığın milli düsturu kimi qəbul olunur.

Məmməd Araz yaradıcılığının baş qəhrəmanı Azərbaycandır. Onun "Vətən mənə oğul desə”, "Məndən ötdü, qardaşıma dəydi”, "Mənim Naxçıvanım”, "Ata ocağı”, "Ana yurdum, hər daşına üz qoyum” şeirləri vətən mövzusunda ən yaxşı əsərlər kimi dillər əzbəridir. Poeziyamızda Azərbaycan mövzusunda çox yazılıb. Azərbaycana çoxlu şeirlər ithaf olunub. Amma Məmməd Arazın "Azərbaycan – dünyam mənim” şeirinin bənzəri yaradılmayıb. Bu şeirin bütün intonasiyası şair qəlbinin ağrılarından, fəal vətəndaş narahatlığından keçir. Şeir yaradıcılığında olduğu kimi, poemaları ilə də Məmməd Araz təkrarsızdır. Onun "Üç oğul anası”, "Araz axır”, "Mən də insan oldum”, "Paslı qılınc”, "Əsgər qəbri”, "Atamın kitabı” poemaları hər şeydən əvvəl insan mənəviyyatının mürəkkəbliyi, tarix və müasirlik, milli tale və tarixi yaddaşın bərpası kimi fundamental məsələlərə həsr olunub. Oxucular səhnəyə daxil olur, xalq şairi M.Arazın “Azərbaycan-dünyam mənim” adlı şeirini səsləndirirlər.

Azərbaycan – qayalarda
bitən bir çiçək,
Azərbaycan –
çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı
vəsf eləyərək,
Azərbaycan dünyasından

baxar dünyaya.

Azərbaycan mayası nur,
qayəsi nur ki...
Hər daşından alov dilli
ox ola bilər.
"Azərbaycan!" deyiləndə
ayağa dur ki,
Füzulinin ürəyinə toxuna bilər.
Oğulları Kür gəzdirər biləklərində,
Oğulların göz atəşi gözəl əridir.
Azərbaycan səhərinin
bəbəklərində
Qütb ulduzu,
dan ulduzu gözəlləridir.

Tariximə qara xətli hicri, miladi
Qılıncların qan ağzıyla
yazılmadımı?
Babaların boz çöllərə bənzər
Muradı
Qızıl bayraq
dalğasından yaz almadımı?!

İllər olub-kürrələrdə
dəmir olmuşuq.
Sərhədlərdə dayanmışıq
küləkdən ayıq.
Od göləndə,
buz çölündə gəmi olmuşuq,

Biz Bakının ilk səadət carçılarıyıq.
Min illərlə zülmətlərə yollar açıqdı,
Dalğalandı Sabirlərin
ümman dünyası,
Azərbaycan qatarı da yollara çıxdı
Dağılanda Qoca şərqin
duman dünyası.

Azərbaycan mayası nur,
qayəsi nur ki...
Hər daşından alov dilli
ox ola bilər.
"Azərbaycan!" deyiləndə
ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər.

Məmməd Araz yaradıcılığının oxucular arasında geniş təbliği üçün keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecə oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbirin birinci hissəsi çıxış və məruzələrlə başlayır. Tədbiri hazırlayan kitabxanaçı bir çox şair və yazıçıları, ədəbiyyat müəllimlərini, şagird və müəllim heyətini tədbirə dəvət edə bilər.Tədbirdə iştirak edən qonaqlar şairin keçdiyi keşməkeşli həyat yolundan bəhs edirlər. İkinci hissədə isə şairin poemalarından səhnəciklər, sözlərinə yazılmış mahnılar, şeirlər səsləndirilir. Səhnə yubileylə bağlı gül-çiçəklə bəzədilir. Divardan şairin portreti və sitatı asılır.

**“Sözü həddindən artıq obrazla yükləmək, bədii deyiminin kvadratını kəşf etməyə can atmaq, bəzən onun səmimilik, təbiilik deyilən keyfiyyətlərinə xələl gətirir”.**

**Məmməd Araz**
**Xalq şairi**

Tədbir sözləri Məmməd Araza, musiqisi Ramiz Mirişliyə aid “Azərbaycan, yurdum mənim” adlı musiqi ilə başlayır. Aparıcılar səhnəyə daxil olur:

I Aparıcı: Məni şeirimdə gəz bir insan kimi,
Qəlbimdə nə varsa, onu demişəm.
Anadan-bacıdan gizlətdiyimi
Kağızdan, qələmdən gizlətməmişəm.

Xalq şairi Məmməd Arazın uşağlığı və gənclik illəri qədim Naxçıvanda keçmişdir. Şahbuz dağlarının özünəməxsus ab-havası, səfalı Batabat yaylağının, Çadırdaş ətəyindəki, salvartı yaxasındakı obaların romantik axar-baxarı Məmməd Arazın ruhuna hopmuşdur. O, “bütün aləmə”-Vətənə və dünyaya “yayda günəşi, qışda qarı bol olan”, “ürəyinin bir parçası” adlandırdığı Naxçıvandan baxmışdır. Naxçıvan Məmməd Arazın təkcə tərcümeyi-halının, həyatının deyil, sənətinin də start nöqtəsi olmuşdur. Məmməd Araz həyatının sonrakı çətin dövrlərini, sənətin eniş-yoxuşlarını daim sinəsində hifz etdiyi həmin “dağ havası” ilə uğurla keçə bilmişdir:

Sinəmdə o yerin dağ havasıdır,
Qaynar bulaqları qaynar qanımda.
Mənim ürəyimin bir parçasıdır
Doğma Şahbuzum da Naxçıvanım da.

Mən burdan baxıram bütün aləmə,
Bu yerin qışı da yazımdır mənim.

Axar çaylarına lal sudur demə,
Onlar min nəğməli sazımdır mənim.

**I Aparıcı:** Xalq şairi Məmməd Arazın oxucu ürəyində öz yozumu var. Həmişə onun haqqında fikirləşəndə istər-istəməz aşağıdakı misraları yada düşür.

Şeirim, şimşəklərdən qanad istə sən,
Yerəsə insanın nəfəsiylə gəl.
Dünyada bir damla olmaq istəsən,
Dünyaya sən ümman həvəsiylə gəl.

Vətənə, xalqa, doğma torpağa məhəbbət hissi Məmməd Arazın yaradıcılığını qidalandıran mənbələrdən ən mühümü və güclüsüdür. Onun hər şeirində, hər sözündə belə Vətənə məhəbbət tərənnüm olunur. Şair etiraf edir: "Bu torpağın daşı olub qalaydım, yoxdu özgə umacağım". Məmməd Arazın fikrincə:

Vətən daşı olmayandan
Olmaz ölkə vətəndaşı

"Böyük" və "kiçik" vətən, Azərbaycan və şairin doğulduğu Nurs kəndi Məmməd Arazın şüurunda ayrılmaz birlik təşkil edir. Hər ikisi ona doğma və əzizdir.

Azərbaycan deyiləndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər.

Bu sətirlərdə şairin doğma vətənə bəslədiyi fərəh dolu məhəbbəti aydın görünür. Bununla yanaşı o, öz "kiçik vətənini də unutmur:

Budur, uşaqlığım keçən o yerlər
Çadırdaş ətəyi, Nursu bulağı

Məmməd Araz öz kökləri ilə onu bəsləyən, boya-başa çatdıran, ona böyük həyata vəsiqə verən kiçik yurdunu incə bir məhəbbətlə sevir, oğul nəvazişi ilə deyir:

Kəndim, balacasan, çox balacasan,
Adın yox dünyanın xəritəsində
Atılıb qalmısan gözlərdən uzaq
Çaylı, baldırğanlı dağ dərəsində

**I Aparıcı:** Vətən sözü şair üçün mücərrəd bir məfhum deyil. Məmməd Araz vətən dedikdə gözlərimiz qabağında yurdumuzun gözəl düzləri, bol sulu çayları, məğrur dağları, yalçın qayaları canlanır. Ancaq Məmməd Araz yalnız vətənin gözəlliyini təsvir etməklə kifayətlənmir. Şairin Vətənə məhəbbəti onun yovşanını yad elin gül-çiçəyindən daha əziz bilməsidir, “sağolun”dan başqa özgə mükafat istəməməsidir:

Heç bir mükafatın yetmədi mənə,
Bircə sağolun da bəsimdi, vətən.
Bəsimdi hər səhər təltif yerinə
Qapımda küləyin əsibdi vətən.

Məmməd Araz vətən deyəndə Cənubi Azərbaycanı da yaddan çıxarmır. O, bir ürəyi iki bölən, bütövü paralayan tikanlı məftillər haqqında ürək yanğısı ilə söz açır:

Mən təbrizli, naxçıvanlı, mən gəncəliyəm,
Çox görmüşəm hasar üstə ölənləri də.
Mən torpağı bölünməyə öyrəncəliyəm,
Heç qazanan görməmişəm bölənləri də.

Aparıcılar səhnəyə daxil olur. “Bu gecə yuxumda Arazı gördüm” adlı şeirini səsləndirirlər.

**I Oxucu:** Bu gecə yuxumda Arazı gördüm,
Arazı belə tox görməmişdim heç.
Arazı bəxtindən çox razı gördüm,
Üstündən yol atdı: "cəsarətlə keç!"

Dedi: sinəsinə çaylar axmasa
Dənizlər itirər dənizliyini.
Cəsarət üstümdə şahə qalxmasa
Təbriz itirəcək Təbrizliyini.

Bu hansı tarixdi - xəzan yarpağı? -
Qəfil küləklərin carçıları kim?
Mən ki, öyrənmişəm qaya yarmağı,
Bir dərə dibinə necə çəkilim?

Qədimlik utanır qədimliyindən,
Qədim abidələr gülüş hədəfi.
Bir dilin bir dilə qənimliyindən
Dad qılır çalağan, dad qılır əfi.

**II Oxucu:** Yüz illər beləcə yatıb mürgülər,
Sahil qayaları olsan, nə fayda!
Axar su üzünə bir dəfə gülər,
Bir də o gülüşlər çətin qayıda.

Su içmək üçündü, çay keçmək üçün;
İçilməz, keçilməz çayı su bilmə.
İnsanı ölümdən alan ölümün
Zəhmini insanın qorxusu bilmə.

Əsrimiz körpülər əsridir indi,
Pas atmış ağıllar quylanır yerə.
Mənim sularımın dizliyi gendi,
Qabarıb hay salar lal sahillərə.

Qoymaz üç addımda çöllər alışa,
Qoymaz ağızlarda dillər alışa.
Nə qədər yataqda Araz var hələ,
Arazdan içməmiş Təbriz var hələ,
Ya mənim dərdimlə yaşar bu dağlar,
Ya da ki, üstümə aşar bu dağlar...

**II Aparıcı:** İnsan və təbiət bağlılığı da Məmməd Araz yaradıcılığının başlıca qaynaqlarından biridir. Şair doğma yurdun təbiətin vurğunudur. Onun təbiətə münasibəti bir dosta, sirdaşa olan münasibətdir:

Neçə yazdı düşmür yolum,
Yəqin dağlar küsüb məndən,
Gedim öpüm, qurban olum,
Yəqin dağlar küsüb məndən.

Məmməd Arazın şeirlərində təbiət ağrılı-acılı, sevincli-kədərli bir canlıdır: "ağlayan qayalar", "yetim ulduzlar", "küsəyən dağlar"...bizimlə birgə yaşayır, birgə nəfəs alır. "Araz üstə çinar gördüm" şeiri iki çinarın məhəbbət əfsanəsi kimi təsirlidir.

Təbiəti sevmək şairin təsəvvüründə onu qorumaq deməkdir. İnsanların təbiətə vurduğu sağalmaz yaralardan danışmağa da şairi məcbur edən qüvvə doğma vətənə, onun sonsuz gözəlliyinə olan məhəbbətdən doğur.

Məmməd Araz poeziyasında insanlıq, insan haqqında fikirlər, müşahidələr əsas yer tutur. İnsan, onun daxili aləmi, sevgisi, nifrəti, mənəvi zənginliyi, insan ziddiyyətləri şairi düşündürür, duyğulandırır və onun yaradıcılığında öz təkrarolunmaz əksini tapır. Şairin lirik qəhrəmanı bizim müasirimiz, dərin düşüncə və incə qəlbə malik olan insandır. O, dostluğa sadiq, tərifdən qorxan, təvəzökar, yaxşılığı "nəsildən

nəslə qalan varımız sayan”, yalana nifrət edib “həqiqət sözünü söz allahı” bilən insandır. Bu lirik qəhrəmanın həyəcan dolu hissləri oxucunun qəlbində güclü hisslər oyadır.

Onun lirik şeirlərinin ən zərifləri, ən incələri ana mövzusuna həsr olunub:

Necə yad görürəm doğma yerləri...
İlk dəfə qarşıma çıxmadı anam.
İlk dəfə anamsız açdım səhəri,
İlk dəfə anamsız düşəcək axşam.

Məmməd Arazın ana haqqında hər kəlməsi zərb-məsəl kimi səslənir, oxucunun yaddaşına həkk olunur:

Uşaqlıq itirmək, gənclik itirmək
Ana itirəndə yada düşərmiş...

Məmməd Araz həm də lirik şairdir. Onun hər şeiri, hər sətri nəğmə nəğmə kimi səslənir. Azərbaycan dilinin gözəlliyi, oynaqlığı, incəliyi, səmimiliyi Məmməd Arazın bütün şeirlərində əks olunub bizi heyran edir:

Bulaq gördüm-uşaq kimi ərköyün,
Məni gəzər məndən qaçan ürgəyim,
Salamat qal bu dağlarda, ürəyim,
Salamat qal,
Salamat...

Məmməd Araz poeziyası haqqında danışmaq çox çətin və məsuliyyətlidir. Bu çətinlik onun yaradıcılığının dərinliyindən, məsuliyyət isə xalqın ona bəslədiyi məhəbbətdən doğur.

Oxucular səhnəyə daxil olur. “Ağarma, saçım, ağarma” şeirini söyləyirlər.

**I Oxucu:** Nə erkən sənə dən düşdü,
Niyə düşdü, nədən düşdü?
Beynimmi qüvvədən düşdü?

Ağarma saşım, ağarma!

Arzu sonsuz, ömür yarı...
Artdı alnın qırışları,
Səndə insaf olsun barı
Ağarma, saçım, ağarma!

Məni qəmgin görsə əgər
Düşmən gülər, dost qəm yeyər,
Qızlar baxıb “dayı” deyər,
Ağarma, saçım, ağarma!

Daşdır qəlbin, daşdır canın,
Yoxdur, duyğun, yoxdur qanın.
Hələ gəncəm, sən vicdanın
Ağarma, saçım, ağarma!

Ömür keçir, yaman keçir,
Qəlbimdən qara qan keçir.
Daha gözəllər yan keçir,
Ağarma, saçım, ağarma!

Hələ səsim ucalmayıb,
El gücündən güc almayıb.
Hələ ürək qocalmayıb
Ağarma, saçım, ağarma!

İlham adlı şahpərm var,
Yol üstəyəm, səfərim var...

Yazılmamış əsərim var...
Ağarma, saçım, ağarma...

**I Aparıcı:** Məmməd Araz şeiri müasir poeziyamızın seçilən nümunələrindəndir və istər bədii tutumu, istərsə də məzmun-mündəricə baxımından dərhal diqqəti cəlb edir. Onun şeirlərində fikrin obrazlı ifadəsi, vəzn, qafiyə çalarları, mövzuya şair münasibəti də məhz bu özünəməxsusluqla bağlıdır.

Şair, qoyma bu gün qəzəb qol aça,
Dağlar uçar-dümcələcəm qolayca.
Günəş bu gün yer üzündə qalayçı...
Aşıq qardaş, alova düş, qara çıx,
“Qaracı” çal, “qaraçı” çal, “Qaraçı”...

M.Arazın güclü istedad sahibi olduğunu hamı bilir. Amma onun bir sıra əsərləri kimi “Bir ömür yolunda” şeiri də bir daha sübut edir ki, güclü istedad sahibləri də şeiri elə belə, necə deyərlər, “bir nəfəsə” yazmırlar. Poeziyanın “qara fəhləsi” olan M.Araz da öz əsərləri üzərində dönə-dönə işləyir, düşünüb-daşınır, arayıb-darayır və onları bu cür mükəmməl səviyyədə oxucuların mühakiməsinə təqdim edir:

Ömrümə kibrit çək dost əllərilə,
Ömürdü-bir çəngə küləşdi-deyim!
Döşümə düymə tik dost əlləriylə,
Sinəmdən göyərən günəşdi-deyim!

M.Araz yığcam şeir ustasıdır. Onun sözçülüklə işi yoxdur. Şair fikri kəsə deməyin, az sözlə mükəmməl poetik qənaət ifadə etməyin tutarlı nümunələrini yaratmışdır.

Bu torpaq əsrlər qaranlığında
Qəfil nur dağları dikəldib axı!
Bu torpaq qədimlər toranlığında
Nadan sürücü də kökəldib axı!

M. Arazın fəaliyyəti təkcə bədii yaradıcılığından ibarət deyil. Reşəkar şair olduğuna baxmayaraq müntəzəm bədii axtarışıar aparıb yüzlərlə əsərini yazmaqla yanaşı, öz zəif və zərif canı ilə həmişə haradasa işləməli olmuşdur. O, müəllimlik etmiş, qəzet-jurnal redaksiyalarında, nəşriyyatlarda müxtəlif vəzifələrdə çalışmışdır.

Oxucular səhnəyə daxil olur. Məmməd Arazın "Deyirlər şeir oxunmur" adlı şeirini səsləndirirlər.

Fikirlər dolanır başımda min-min,
Görən doğrudanmı oxunmur şer?
Görən doğrudanmı insan qəlbinin
İncə hisslərinə toxunmur şer?

Şair nə gərəkdir oxucu yoxsa?
Beyinlər, ürəklər pas atıb, nədir?
Şerimiz öz fikir donunu yoxsa,
İndi "son modada" geyinməlidir?

Bir insan bilirəm hər nəğməni mən,
Nəğmə də insanla bir doğulubdur.
Ürəkdə sevinci, qəmi kəşf edən
İlk səyyah bəlkə də nəğmə olubdur.

Nəğməni körpə tək böyüdüb insan,
Nəğmə ana olub -- ovunmuşuq biz.
Dərdin, ehtiyacın tufanlarından
Azmı nəğmələrlə qorunmuşuq biz?!

Sellər uyudubdur laylalarımız,
Çöllər uyudubdur holavarımız.
Odlu şerlərlə suvarıb bəzən
Qəzəb qılıncını babalarımız.

Ötən müharibə yadımda qalır:
Onda qələmlər də səfərbər idi.
Hər şair yurdumun bir generalı,
Hər şer yurdumun bir əsgəriydi.

Vətən nəğmələri olmasa bir an
Könüldə gül açıb yaz ola bilməz.
Nəğməsi olmayan, şeri olmayan
Bir xalqın tarixi yazıla bilməz!

Fikirlər dolanır başımda min-min,
Görən doğrudanmı oxunmur şer?
Görən doğrudanmı insan qəlbinin
İncə hisslərinə toxunmur şer?

Bəlkə qan dəyişib insan canında,
Hər şeyi sevməmək bir adət olur.
Yox, şair, hər kiçik bir yalanın da
İçində bir kiçik həqiqət olur.

Artır söz yığını, artır çayır tək,
Hamı deyən olub, yazan olubdur.
"İlhama sarılmaq", qələm götürmək
Papiros çəkməkdən asan olubdur.

Gəlin gizlətməyək: hələ şerimiz
Peyk ola bilməyib yer kürəsinə.
Gəlin gizlətməyək, gizlətməyək biz
Bu gün şerimizin bülbül səsinə
Qurbağa səsini qatanlar da var;
Arpa çörəyini lavaş yerinə,
Çürümüş ipliyi qumaş yerinə ,
"Köhnə dağarcığı tumaş yerinə"
Bu gün oxucuya satanlar da var;

Sən də, ey oxucu, önümdə dayan!
Sən də çək ortaya günahını bir!
Məncə qapısını kitab açmayan
Bir ev müəllimsiz məktəb kimidir.

Adam var fərqini bilməyir hələ
Böhtan yazan əllə, söz yazan əlin.
Qəlbi lal, beyni kar adamlar ilə
Şeri tərəziyə qoymayaq gəlin!

M.Arazın poeziyası milli-mənəvi varlığımıza ucaldılmış əbədiyyət abidəsidir. Tarix bizdən uzaqlaşdıqca o bizə daha da yaxınlaşacaq, daha əzəmətli görünəcək. Çünki onun mayası səmimiyyətdən, qayəsi həqiqətdən tutulub. Səmimiyyət və həqiqət insanın özü kimi, sənəti də ucalığa yüksəldən qoşa

qanaddır. Səmimiyyət qəlbin, həqiqət zəkanın böyüklüyünü əks etdirir.
M.Arazın füsünkar poeziyası Azərbaycan poetik təfəkkürünün istiqlal çələngidir.

Bir gün həyatımda yellər qopacaq,

Ömür öz tağından salacaq məni.

Neçə il üstündə gəzdiyim torpaq

Bir gün qoynuna alacaq məni.

Qəbrimdə göyərən otları külək,

Yayıb göyərdəcək dərədə, düzdə.

Bəlkə sinəm üstə bitən bir çiçək,

Gəzəcək nə qədər sinələr üstə.

Ömür də bir borcdur əlli il, yüz il,

Bədbəxtdir az yazıb, çox yaşayanlar.

Şair dost, ömrünü yaşında deyil,

Yazdığı nəğmənin özündə axtar.

II Aparıcı: Azərbaycanda istiqlal təfəkkürünün formalaşmasında və təkamülündə Məmməd araz yaradıcılığının xüsusi rolu olmuşdur. O, xalq, cəmiyyət qarşısında, milli dövlətçiliyimiz qarşısında öz məsuliyyətini dərk edən əsl xalq şairi, Azərbaycan ziyalısı idi.

Öz əsərlərində Azərbaycan təbiətinin gözəlliklərini poetik dillə tərənnüm edən Məmməd Araz bu füsunkar təbiətin qorunması məsələlərinin təbliğində də böyük rol oynamış, öz şeir və publisistikası ilə bu mühüm işə xidmət göstərmişdir.




Şairin əsərləri ayrı-ayrı xalqların dillərinə tərcümə edilərək nəşr olunmuşdur. Məmməd Arazın bədii tərcümələri sayəsində isə Azərbaycan oxucusu dünya ədəbiyyatının bir sıra nümunələri ilə tanış olmaq imkanı qazanmışdır.
Məmməd Arazın ədəbi fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, "Əməkdar mədəniyyət işçisi", "Xalq şairi" fəxri adlarına, Dövlət mükafatına layiq görülmüş, müstəqil Azərbaycan respublikasının ən ali mükafatı-"İstiqlal" ordeni ilə təltif olunmuşdur. Görkəmli şair, əsl vətəndaş və gözəl insan Məmməd Arazın işıqlı xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaqdır.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı

**Kitabları**


Seçilmiş əsərləri : poeziya. - Bakı : Təhsil, 2014. - 400 s.

Seçilmiş əsərlər : 4 cilddə. **C. 1.** : şeirlər. - Bakı : Ozan, 2003. - 348 s.

Seçilmiş əsərləri. 4 cilddə. **C. 2.** : şeirlər. - Bakı : Ozan, 2003. - 332 s.

Seçilmiş əsərləri : 2 cilddə. **C. 1.** : şeirlər. - Bakı : Lider nəşriyyatı, 2004. - 224 s.

Seçilmiş əsərləri : 2 cilddə. **C. 2.** : şeirlər, poemalar. - Bakı : Lider nəşriyyatı, 2004. - 232 s.

Seçilmiş əsərləri : poeziya. - Bakı : Çaşıoğlu, 2004. - 384 s.

Seçilmiş əsərləri : poeziya. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM)

Ağlayan qayalar : şeirlər. - Bakı : Araz, 2002. - 144 s.

Naxçıvan albomu : poeziya. - Bakı : Elm və Təhsil, 2010. - 216 s.

Vətən deyin : poeziya. - Bakı : Adiloğlu, 2003. - 150 s.

**Haqqında kitablarda**

**Fətəliqızı G**. Məmməd Arazlı günlərim : xatirələr. - Bakı : Zəkioğlu, 2008. - 216 s.

**Fətəliqızı G.** Ömürdən yarpaqlar. - Bakı : Elm və Təhsil, 2013. - 352 s.

Mammad Araz : Poet, 1933-2004. - Baku : "Khan" Publishing House, 2015. - 36 p.

**Mehdi H**. Çağdaş poema və gerçəklik : Xalq şairi Məmməd Arazın poemaları əsasında. - Bakı : Elm, 2000. - 200 s.

**Dövrü mətbuatda**

**Abbas A**. Məmməd Arazın Həmidə xanımı : Məmməd Araz - 80 // Ədəbiyyat qəzeti. - 2013. - 20 sentyabr. - № 35. - S. 6.

**Abbaslı T**. "Şair!" sözü eşidəndə... sayğıya dur ki, Məmməd Arazın ruhuna toxuna bilər... // Mədəniyyət. - 2012. - 17 oktyabr. - № 75. - S. 13.

**Abbaslı T**. Bir qələm vardı... // Mədəniyyət. - 2019. - 13 dekabr. - № 91. - S. 6.

**Abbaslı T**. Bir şair vardı... : Xalq şairi Məmməd Araz haqqında // Mədəniyyət. - 2011. - 14 oktyabr. - № 76. - S. 13.

**Abbaslı T**. Bir şair vardı... Ömrü boyu tufan əydi, su yardı... : Məmməd Araz // Kaspi. - 2013. - 20 sentyabr. - № 171. - S. 11.

**Abbaslı T**. Ədəbi söz-köz gəlişi... : Məmməd Araz - 80 // Mədəniyyət. - 2013. - 23 oktyabr. - № 75. - S. 12.

**Abbaslı T**. Məmməd Araz... : bir şair ki... nə qədər danışırsan-danış, yazırsan-yaz, qurtarmaz ki qurtarmaz! // Mədəniyyət. - 2016. - 2 dekabr. - № 92. - S. 12.

**Abbaslı T**. Otuz yaşlı gözyaşı... : Ulu Şəhriyarımızın 30 illik anımı və təkrarsız Məmməd Arazımızın "Şəhriyar gəlmədi" yanımı üstə köklənmiş köşə // Mədəniyyət. - 2018. - 21 sentyabr. - № 68. - S. 13.

**Abbaslı T**. Salamat yat, salamat... // Mədəniyyət. - 2012. - 5 dekabr. - № 88. - S. 13.

**Abbaslı T**. Salamat yat, ŞAİRimiz, salamat... : Səni çox incitmiş bu dünyada buçaxkı saygı-sanın sarı arxayın ol, o dünyadan muğayat... // Mədəniyyət. - 2017. - 1 dekabr. - № 94. - S. 15.

**Abbasova A**. Məmməd Araz yaradıcılığında folklor motivi: Çoban obrazı // Kaspi. - 2013. - 20 dekabr. - № 243. - S. 15.

**Abdin K**. Dünyanın mehinə dönən şair : Məmməd Araz // Mədəniyyət. - 2015. - 14 oktyabr. - № 79. - S. 12.

**Abdullayeva F**. Moskvada Xalq Şairi Məmməd Arazın yubiley gecəsi // İki sahil. - 2013. - 26 noyabr. - № 222. - S. 18.

**Araz M**. Şerim : şeir // Savalan. - 2008. - 11-17 noyabr. - S. 1.

**Asimqızı A**. Üfüqə döğru gedən ağ yol : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 18 oktyabr. - № 190. - S. 11.

**Aydınoğlu T**. Milli poeziyamızın Məmməd Araz möcüzəsi // Xalq qəzeti. - 2013. - 22 dekabr. - № 283. - S. 7.

**Aydınoğlu T**. Poetik sözün Məmməd Araz möcüzəsi : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 29 oktyabr. - № 196. - S. 10-11.

**Azalp A**. Məmməd Araz lirikası : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 22 oktyabr. - № 192/1. - S. 11-12.

**Azəri L**. Vətən uğrunda qılınc, yaxud ruhları oxşayan rübab : Milli Kitabxanada Məmməd Arazın 80 illik yubileyi qeyd olundu // Mədəniyyət. - 2013. - 4 dekabr. - № 87. - S. 6.

**Bağırova İ**. Açıq dərs nümunəsi : Məmməd Arazın "Ayağa dur, Azərbaycan" şeirinin təhlil // Təhsil problemləri. - 2013. - 01-07 iyun. - № 41/42. - S. 11.

**Bəşirli Ə**. "Səninləyəm, haqq-ədalət, səninləyəm!" : Məmməd Araz – 75 // Ədəbiyyat qəzeti. - 2008. - 19 sentyabr. - S. 6.

Bu gecə yuxumda Arazı gördüm : **Məmməd Araz** // Savalan. - 2011. - 28- 31 oktyabr. - № 54. - S. 1.

Dünya sənin... Sən dünyanın - **Məmməd Araz**! // Mədəniyyət. - 2010. - 19 mart. - N 18. - S. 7.

**Elsevər S**. Yenə yaxşıların yeri boş qalır... Nə qədər yaxşıların gəlir dünyaya : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 11 oktyabr. - № 186. - S. 11.

**Eminquey.** Məmməd Arazın sufi həqiqətinə çatmış "Dünya"sı // Ədəbiyyat qəzeti. - 2020. - 10 oktyabr. - № 45. - S. 15.

Əbədi poeziya : **Məmməd Araz**ı anım günü // Ədəbiyyat qəzeti. - 2006. - 1 dekabr. - S.3.

**Ədilzadə Ə**. Röyaların gerçək qəhrəmanı : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 25 oktyabr. - № 194. - S. 10.

**Əhməd R**. Dünənin, bu günün, sabahın şairi : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 30 oktyabr. - № 197. - S. 10.

**Əli A**. Ağır daşlar altında : Məmməd Araz // Kaspi. - 2013. - 3 sentyabr. - № 158. - S. 11. ; 4 sentyabr № 159. - S. 11. ; 5 sentyabr № 160. - S. 11.

**Əliyev Ə**. "İsti su" və bir mahnının yaranma tarixi... : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 1 noyabr. - № 199. - S. 10.

**Əliyev Z**. Məmməd Arazın söz palitrası // Kaspi. - 2013. - 21 sentyabr. - № 172. - S. 22.

**Əliyeva N**. Ədəbiyyatımızın, dilimizin Məmməd Araz dühası // İki sahil. - 2020. - 15 oktyabr. - № *182. - S. 27.

**Əliyeva N**. M.Arazın "Ayağa dur, Azərbaycan!" şeirinin məzmunun şagirdlərə öyrədilməsi // Azərbaycan dili və ədəbiyyatı tədrisi. - 2013. - № 3. - S. 37-40.

**Əliyeva S**. Dünya sənin, dünya mənim, dünya heç kimin.. : Müsahibimiz Naxçıvan Dövlət Universitetinin jurnalistika və dünya ədəbiyyatı kafedrasının dosenti İman Cəfərov maraqlı söhbəti ilə bizə yol yoldaşı oldu // İki sahil. - 2017. - 18 oktyabr. - № 188*. - S. 20.

**Əliyeva S**. Məmməd Araz yaradıcılığında mövzu müxtəlifliyi // Təhsil problemləri. - 2017. - 24-31 oktyabr. - N 79/80. - S. 6.

**Əliyeva T**. Şerinin işıqları yanan Məmməd Araz yaşasaydı... // Azərbaycan. - 2012. - 2 iyun. - № 120. - S. 7.

**Ərəstunoğlu R**. Vətən yanğılı şair : Məmməd Araz haqqında // Xalq qəzeti. - 2009. - 8 fevral. - S. 7.

**Əsgərli Ə**. Məmməd Araz poeziyasının vəzn və janr müəyyənliyinə dair // Kaspi. - 2013. - 17 dekabr. - № 240. - S. 15. ; 18 dekabr. - № 241. - S. 15.

**Əsgərov H**. Məmməd Arazın poeziya estetikası : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 5 noyabr. - № 201. - S. 10.

**Əsgərova N**. Məmməd Arazın ədəbi yaradıcılığı XX əsr Azərbaycan poeziyasının parlaq səhifələrindən birini təşkil edir : Məmməd Araz - 80 // Təhsil problemləri. - 2013. - 16-23 avqust. - № 61/62. - S. 13.

**Əzizxanlı Q**. Dünya heç kimin : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 2 avqust. - № 139. - S. 11.

**Əzizxanlı Q**. İstedadlara meydan vermiş III "Məmməd Araz Poeziya Günü" // Ədəbiyyat qəzeti. - 2018. - 13 oktyabr. - № 38. - S. 7.

**Fətəliqızı G**. Məmməd Arazla bağlı xatirələr : tanınmış şairin həyat yoldaşı Gülxanım Fətəliqızı ilə müsahibə / söhbətləşdi R. Günəş // Azərbaycan Müəllimi. - 2015. - 25 aprel. - № 14. - S. 8.

**Fətəliqızı G**. Ömürdən yarpaqlar : Məmməd Araz haqqında xatirələr // Azərbaycan. - 2010. - N 1. - S. 106-144. ; N 2. - S. 98-120. ; N 3. - S. 129-170. ; N 4. - S.73-108.

**Fuad E.** (Şükürova). Neylədim, Vətəni sevmək naminə, ucaltmaq naminə elədim, ancaq! : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 25 sentyabr. - № 174. - S. 11. ; 26 sentyabr. - № 175. - S.11.

**Hacıbəyli C**. Azərbaycan mətbuatında silinməz izlər : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 6 avqust. - № 141. - S. 11.

**Hacızadə N**. Yox ayrı dərmanım, dözümdən ayrı : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 6 noyabr. - № 202. - S. 11. ; 7 noyabr. - № 203. - S.10.

**Həbibbəyli İ**. Əbədi yaşamaq haqqı : Məmməd Araz - 80 // Azərbaycan. - 2013, - 12 oktyabr. - № 226. - S. 9.

**Həbibbəyli İ**. Əbədi yaşamaq haqqı : Məmməd Araz - 80 // Mədəni Həyat. - 2013. - № 11. - S. 14-19.

**Həbibbəyli Z**. Bəlkə bu yerlərə bir də gəlmədim : Məmməd Araz haqqında // Ədəbiyyat qəzeti. - 2014. - 21 fevral. - № 7. - S. 6, 8.

**Həsənova S**. Söz qənirsiz gözəlimdi... : Məmməd Araz və Azərbaycan ədəbi dili // Azərbaycan. - 2014. - № 7. - . 182-184.

**Hümmətov Ə**. Ana yurdum, hər daşına üz qoyum : Məmməd Araz // Təhsil problemləri. - 2017. - 24-31 oktyabr. - N 79/80. - S. 4.

**Hüseyn F**. Bir axşamın balladası: konseptual şeirdə ayrılmaz misralar : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 2 oktyabr. - № 179. - S. 11.

**Hüseynoğlu S.** Bir də ömrümüzə qayıtmaz bu gün... : 14 oktyabr Məmməd Arazı anım günü // Ədəbiyyat qəzeti. - 2011. - 14 oktyabr. - № 38. - S. 4.

**Hüseynov F**. Milli qeyrəti, milli qüruru tərənnüm edən şair : Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında, Xalq şairi Məmməd Arazın 80 illik yubileyinə həsr edilmiş tədbir // Mədəniyyət. - 2013. - 6 dekabr. - № 88. - S. 13.

**Xəlilzadə F**. Bağrımızın Qarabağı : xatirələrin izi ilə // Füyuzat. - 2017. - № 3. - S. 26-29.

**Xəlilzadə F**. Baş redaktorlar // Kaspi. - 2014. - 19 iyun. - № 105. - S. 14-15.

**Xəlilzadə F**. İlmə-ilmə sökülmüş ömür çeşnisi : Xalq şairi Məmməd Araz haqqında // Mədəniyyət. - 2010. - 13 oktyabr. - N 71. - S. 13.

**Xəlilzadə F**. Kürreyi-ərzin şairi : Məmməd Araz // Kaspi. - 2013. - 10 sentyabr. - № 163. - S. 11. ; 11 sentyabr. - № 164. - S. 11. ; 13 sentyabr № 166. - S. 11.

**Xəlilzadə F**. Qara rəngin ağ şəhəri : Və ya Araz şerinin Araz şairi yadıma düşəndə // Kaspi. - 2018. - 16 oktyabr. - № 173. - S. 11.

**Xəlilzadə F**. Məmməd Araz misrası - payız nidası // Kaspi. - 2019. - 12 oktyabr. - № 188. - S. 14.

**Xəlilzadə F**. Məmməd Araz şeirinin yeni ömrü // Kaspi. - 2019. - 5-7 iyun. - № 101. - S. 11.

**Xəlilzadə F**. Söz ustadı : Məmməd Araz - 75 // Azərbaycan. - 2008. - 14 oktyabr. - S. 6.

**Xudiyev N**. Bir monoqrafiyanın təəssüratı // İki sahil. - 2019. - 16 may. - № 88. - S. 11 ; Azərbaycan Müəllimi. - 2019. - 9 may. - № 17. - S. 14.

**İbrahimov T**. Məmməd Arazın poeziyasında təbiət // Respublika. - 2016. - 6 mart. - № 52. - S. 8.

**İsmayılqızı X**. Azərbaycan deyiləndə ayağa dur ki... : Çağdaş dünyamıza Məmməd Arazın gözü ilə baxış // İki sahil. - 2022. - 16 aprel. - № 66. - S. 11.

**İsmayılova N**. Xalq şairi Məmməd Arazın irsinin tədqiqinə mühüm töhfə // 525-ci qəzet. - 2020. - 9 dekabr. - № 170. - S. 19.

**İsmayılova N**. Məmməd Arazın şeirlərində Qərbə münasibət məsələsi : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 25 oktyabr. - № 194. - S. 11.

**Kamal R**. Əşyaların şeriyyəti // Ədəbiyyat qəzeti. - 2015. - 15 avqust. - № 47. - S. 15.

**Kamal R**. Mənim könlüm bu torpağı vəsf eləyərək : şair Məmməd Arazın yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2016. - 15 oktyabr. - № 38. - S. 9.

**Kamal R**. Ovsun effekti : Məmməd Araz // Ədəbiyyat qəzeti. - 2015. - 17 oktyabr. - № 54. - S. 25.

**Kazımbəyli İ**. Vətən tarixinin Məmməd Araz harayı : Məmməd Araz - 80 // Psixoloq. - 2013. - 29 oktyabr. - № 10. - S. 15.
**Kədərli T**. Məmməd Araz həsrətindən... : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 29 oktyabr. - № 196. - S. 11.

**Kəlbizadə E**. Ustadla söhbət : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 31 oktyabr. - № 198. - S. 10.

**Kələbizadə E**. Məmməd Araz: Azərbaycan poeziyasında vətəndaşlıq zirvəsi // İki sahil. - 2013. - 8 oktyabr. - № 190. - S. 10.

**Kələntərli K**. Mənim şair qardaşım : Məmməd Araz - 80 // Azərbaycan. - 2013. - № 10. - S. 80-87.

**Kərimli X**. Məmməd Araz yaradıcılığında Azərbaycançılıq // Kaspi. - 2013. - 9 oktyabr. - № 184. - S. 11.

**Kərimli X**. Məmməd Araz yaradıcılığında azərbaycançılıq // Palitra. - 2013. - 26 iyun. - № 113. - S. 13.

**Kərimli X**. Məmməd Araz yaradıcılığında mənəviyyat : Məmməd Araz - 80 // Ədəbiyyat qəzeti. - 2013. - 8 mart. - № 9. - S. 4.

**Kərimli X**. Ömrü yaşadan izlər // Ədəbiyyat qəzeti. - 2019. - 2 fevral. - № 4. - S. 27.

**Qaraxanoğlu M**. Ev tapşırığı"nı başqa xətlə yazanlar : Məmməd Araz - 80 ; esse // Kaspi. - 2013. - 31 oktyabr. - № 198. - S. 11.

**Qaraxanoğlu M**. Məmməd Araz: "Mən daşam, dəmirəm, torpağam daha..." : esse : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 27 sentyabr. - № 176. - S. 11.

**Qasımbəyli Y**. Ana torpaq"larda Vətən tərifi : Məmməd Araz - 80 // Ədəbiyyat qəzeti. - 2013. - 20 sentyabr. - № 35. - S. 6.

**Qasımbəyli Y**. Azərbaycanın böyük və döyüşkən nəğməkarı // Ədəbiyyat qəzeti. - 2021. - 16 oktyabr. - № 41. - S. 25.

**Qasımbəyli Y**. Böyük Azərbaycan şairinə Araz sevgisi // Kaspi. - 2014. - 19 mart. - № 48. - S. 14.

**Qasımbəyli Y**. İlham və İstiqlal : Məmməd Araz lirikasında milli müstəqillik motivləri // Kaspi. - 2013. - 21-23 dekabr. - № 244. - S. 7.

**Qasımbəyli Y**. Məmməd Araz və milli istiqlal : Azərbaycan müstəqilliyinin 25 illiyinə ithaf olunur // Kaspi. - 2016. - 29 oktyabr. - № 175. - S. 15.

**Qasımbəyli Y**. Məmməd Arazın azad poeziya amalı // Ədəbiyyat qəzeti. - 2012. - 19 oktyabr. - № 39. - S. 6.

**Qasımbəyli Y**. Milli oyanışın və istiqlalın poetik manifesti // 525-ci qəzet. - 2018. - 13 oktyabr. - № 179. - S. 24.

**Qasımbəyli Y**. Minilliyin şeiri : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 24 oktyabr. - № 193. - S. 10-11.

**Qasımov Ə**. Məmməd Araz axşamı : Təlim və Tədris Mərkəzində ölməz şair Məmməd Arazın 80 illik yubileyinə həsr edilmiş ədəbi-bədii gecə keçirilib // Azərbaycan ordusu. - 2013. - 27 noyabr. - № 56. - S. 4.

**Qasımov R**. Xalq şairi Məmməd Araz yaradıcılığında milli düşüncə və vətəndaşlıq ideallarının təcəssümü // Azərbaycan dili və ədəbiyyat tədrisi. - 2017. - № 4. - S. 37-42.

**Quliyev A**. Vəsiyyət : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 7 sentyabr. - № 163. - S. 22-23.

**Quliyeva Z**. Məmməd Araz deyəndə ayağa dur ki... // Kaspi. - 2013. - 31 iyul. - № 137. - S. 11.

**Quliyeva Z**. Məmməd Araz deyəndə ayağa dur ki... // Kaspi. - 2013. - 30 oktyabr. - № 197. - S. 11.

**Qurbani A**. Cəbhə bölgələrində unudulmaz görüşlər : Məmməd Araz - 80 // Ədəbiyyat qəzeti. - 2013. - 6 dekabr. - № 45. - S. 5-6.

**Qurbanqızı Z**. O daş altda Məmməd Araz yaşayır // Respublika. - 2022. - 14 oktyabr. - № 224. - S. 9.

**Qurbanov A**. Vətən mənə oğul desə... : Məmməd Araz ömrü // Füyuzat. - 2016. - № 2. - S. 24-29.

**Qurbanova Y**. O daş altda Məmməd Araz yaşayır : Məmməd Arazın "dünya"sı // Kaspi. - 2013. - 15 oktyabr. - № 188. - S. 11.

**Laçınlı F**. Məmməd Araz irsinin təhlili : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 23 oktyabr. - № 192. - S. 11-12.

**Məftun M**. Cavid əfəndi ; Məmməd Araza ; Ağlama gitara və b. // Ədəbiyyat qəzeti. - 2018. - 1 dekabr. - № 45. - S. 21.

**Məhiqızı E**. Atamın dostu : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 30 oktyabr. - № 197. - S. 11.

**Məlikzadə H**. Qoca şair - Uca şair : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 29 avqust. - № 155. - S. 11.

Məmməd Araz **(1933-2004)** : Görkəmli şəxsiyyətlər // Savalan. - 2020. - 20-26 oktyabr. - № 26. - S. 2.

Məmməd Araz **poeziya** günü : Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi, şair, tədqiqatçı Qardaşxan Əzizaxanlının təşəbbüsü və təşkilatçılığı ilə respublikada ilk dəfə olaraq **Məmməd Araz** poeziya günü keçirilib // Xəzər. - 2016. - № 355. - S. 64.

Məmməd Araz **ürəyi** : **Məmməd Araz** Məmməd Aslanın xatirələrində // Mədəniyyət. - 2009. - 11 mart. - S. 13.

Məmməd Araz**ın 80** illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (27 sentyabr 2013-cü il) // Ədəbiyyat qəzeti. - 2013. - 4 oktyabr. - № 37. - S. 1.

**Məmmədli E**. Nişançı özümüz, hədəf özümüz : Məmməd Araz // Kaspi. - 2013. - 6 sentyabr. - № 161. - S. 11.

**Məmmədov S**. Düşünən və düşündürən şair : Məmməd Araz // Kaspi. - 2013. - 21 sentyabr. - № 172. - S. 23.

**Məmmədov V**. Məmməd Arazın 45 yaşlı məktubu və şair haqqında xatirələrim : Məmməd Araz - 80 // İki sahil. - 2013. - 30 sentyabr. - № 182. - S. 3.

**Mərdanova S**. Məmməd Arazın poemalarında lirik ricətlər // Azərbaycan dili və ədəbiyyatı tədrisi. - 2012. - № 2. - S. 35-39.

**Məsim E**. Yaşadım : "Bu da belə bir ömürdü, yaşadım..." misrasının müəllifi Məmməd Araza ithaf // Palitra. - 2019. - 9 yanvar. - № 4. - S. 15.

**Mirzəyeva L**. Araz Azərbaycan poeziyasında // Kaspi. - 2012. - 22-24 dekabr. - № 450. - S. 19.

**Mustafa Ə**. Məmməd Arazın şeirlərində vətən sevgisi və milli azadlıq mücadiləsi : Məmməd Araz-80 // Kaspi. - 2013. - 28 sentyabr. - № 177. - S. 22.

Naxçıvanda xalq şairi **Məmməd Araz**ın 80 illik yubileyi qeyd edilmişdir // Azərbaycan. - 2013. - 15 oktyabr. - № 228. - S. 12.

**Nəcəfzadə Q**. Şəkillər "Altı qızın biri Pəri" : Azərbaycanın xalq şairi, Məmməd Arazın yaradıcılığı haqqında // Azərbaycan : jurnal. - 2015. - № 4. - S. 153-154.

**Nəsiboğlu R**. Səsböyüdən ; Bir təzə miranı qoymuşam evdə ; Göz əyirdin, söz suvardın boyunu sevə və b. : şeirlər // Azərbaycan. - 2012. - № 1. - S. 123-128.

**Nur N**. Mənim şairim! : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 1 noyabr. - № 199. - S. 11.

**Pənahqızı T**. İki ömür yolu, bir dəmir yolu... // Kaspi. - 2018. - 6 fevral. - № 23. - S. 10.

**Pənahqızı T**. Su olur yandıran, su tapmır yanan... : Məmməd Araz // Kaspi. - 2013. - 30 iyul. - № 136. - S. 11. ; 31 iyul № 137. S. 11.

**Rasimoğlu E**. Ağrılar sevdalısı // Kaspi. - 2019. - 2-4 fevral. - № 22. - S. 20.

**Rəhimli X**. Ruh şairi : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 1 noyabr. - № 199. - S. 10.

**Rzayev R**. Cənnət sevdalısı : Məmməd Araz - 80 // Kaspi. - 2013. - № 147.

**Saffari O**. Əbədiyyətdəki Məmməd Araz ünvanı // 525-ci qəzet. - 2018. - 20 oktyabr. - № 184. - S. 23.

**Səfərov R**. Düşünüb-düşündürən, unudulmaz şairimiz - Məmməd Araz : Məmməd Araz-80 // Kaspi. - 2013. - 3 oktyabr. - № 180. - S. 11. ; 4 oktyabr № 181. - S. 11**.**

**Səidə.** İradə Tuncay Ulu Öndərin səsi hələ də yadımdadır : Xalq şairi Məmməd Arazın anadan olmasının 89-cu ildönümüdür // Yeni Azərbaycan. - 2022. - 14 oktyabr. - № 188. - S. 5.

Səməd Vurğunun ev muzeyində **Məmməd Araz** təqdimatı // Ədəbiyyat qəzeti. - 2007. - 18 may. - S.2.

**Sərvi S**. Mən belə dünyanın... : şair Məmməd Araz haqqında // El. - 2011. - № 11. - S. 4-13.

**Süleymanova Ə**. Gələcəyə inamı ilə dünyanın ən varlı şairi // 525-ci qəzet. - 2022. - 14 oktyabr. - № 187. - S. 14.

**Süleymanova Ə**. Vətəni ilə bütövləşib ucalan şair // 525-ci qəzet. - 2020. - 13 iyun. - № 52. - S. 23.

**Şahbazova G**. Məmməd Arazın "Ayağa dur, Azərbaycan!" şeirinin təhlili // Təhsil problemləri. - 2013. - 24-30 noyabr. - № 87/88. - S. 10.

**Şəmsizadə N**. Meyarlar və Əyarlar : "Fəhmin fəthi" silsiləsindən ikinci yazı // Ədəbiyyat qəzeti. - 2019. - 18 may. - № 17. - S. 22.

**Şıxalıoğlu Q**. "Dünya sənin, dünya mənim, dünya heç kimin" : Məmməd Araz yaradıcılığı haqqında // Mədəniyyət. - 2008. - 29 noyabr. - S. 7.

**Şükürlü İ**. Mən bir qəlbi bölən Araz deyiləm... : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 18 oktyabr. - № 190. - S. 11.

**Şükürov A**. Məmməd Arazın bizə məhrəm dünyası : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 8 oktyabr. - № 183. - S. 11.

**Tahirli A**. Sirli, sehirli sətirlər : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 1 oktyabr. - № 178. - S. 11. ; 2 oktyabr №179. - S. 11.

**Tapdıq İ**. Şair dostum Məmməd Arazın məktubları // Yada düşdü. - 2012. - № 3. - S. 33-39.

**Tuncay İ**. Ona aid hər şey çox şey canlıdır : Ədəbiyyat qəzetinin "Ömrümün keçdiyi sahildən uzaqlaşdıqca" layihəsinin budəfəki qonağı İradə Tuncay atası Məmməd Araz ilə bağlı xatirələrini bölüşür / söhbətləşdi F.Balabəyli // Ədəbiyyat qəzeti. - 2017. - 28 oktyabr. - № 38. - S. 10.

**Turalı Q**. Məmməd getdi, Araz qaldı : Məmməd Araz // Kaspi. - 2013. - 14 sentyabr. - № 167. - S. 22.

**Vahidqızı Ü**. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Məmməd Arazın 80 illiyinə həsr olunmuş tədbir keçirilmişdir // Xalq qəzeti. - 2013. - 10 dekabr. - № 272. - S. 6.

**Vəkilov S**. Məmməd Arazın Azərbaycan dünyası : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 1 noyabr. - № 199. - S. 11.

**Vəliyev Ə**. Məmməd Araz yaradıcılığında qurd obrazı // Kaspi. - 2014. - 9 yanvar. - № 2. - S. 14.

**Vəliyeva S**. Ədalətin itdiyi yerdə iblis taxt qurur : Hüseyn Cavid və Məmməd Araz yaradıcılığı əsasında // Kaspi. - 2019. - 2 noyabr. - № 203. - S. 12-13.

**Yunisli F**. Zirvədəki əl çatmayan qala : Araz şairinin əbədi ömrünə elegiya əvəzi : 1 dekabr Məmməd Arazın xatirə günüdür // Mədəniyyət. - 2014. - 28 noyabr. - № 92. - S. 12.

**Yusifli C**. Şeirdə şahmat oyunu : Məmməd Arazın yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2018. - 13 oktyabr. - № 38. - S. 6.

**Yusifli V**. Dünya sənin, dünya mənim, dünya heç kimin" : Məmməd Araz - 75 // Ədəbiyyat qəzeti. - 2008. - 17 oktyabr. - S. 3, 4.

**Yusifli V**. Naxçıvanın şeir mühiti : "Bölgələrdə ədəbi həyat" silsiləsindən // 525-ci qəzet. - 2019. - 11 dekabr. - № 162. - S. 20-21.

**Yusifoğlu İ**. Məmməd Arazla bağlı kövrək xatirələr : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 1 avqust. - № 138. - S. 11. ; 2 avqust. - № 139. - S. 11**.**

**Yusifoğlu İ**. Unudulmaz şairlə bağlı kövrək xatirələrim... : Məmməd Araz - 85 // Təhsil problemləri. - 2018. - 8-15 oktyabr. - № 75/76. - S. 13.

**Yusifoğlu İ**. Yazan yaman çoxalıb, fəqət şair çatışmır : Məmməd Araz yaradıcılığı haqqında // Təhsil problemləri. - 2017. - 1-7 may. - № 33/34. - S. 15.

**Zeynallı İ**. Üfüqə gedən ağ yol : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 24 avqust. - № 152. - S. 12.

**Zeynaloğlu Ə**. Tox duruşlu zirvələrin nəğməkarı : Məmməd Araz - 80 // Kaspi. - 2013. - 24 sentyabr. - № 173. - S. 11.

**Zümrüd.** Dünya sənin,dünya mənim... : 14 oktyabr Məmməd Arazın doğum günüdür // Səs. - 2010. - 14 oktyabr. - N 188. - S. 12.

**Zümrüd.** Söz mülkünün xiridarı : Bu gün Azərbaycan poeziyasının müdrik şairi Məmməd Arazın doğum günüdür // Səs. - 2014. - 14 oktyabr. - № 188. - S. 12.

# Şeirimizin xan çınarı-Məmməd Araz

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**